


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 95 (21.247)

14 may 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və qızı Arzu Əliyeva paytaxtda Avropa Oyunları Parkının açılışında iştirak ediblər.

Prezident İlham Əliyev parkın rəmzi açılışını bildirən lenti kəsdi.

Diqqətə çatdırıldı ki, Avropa Oyunları Parkı su polosu, çimərlik voleybolu, çimərlik futbolu və basketbol yarışları üçün nəzərdə tutulub. Park üç idman qurğusundan və dörd funksional zonadan ibarətdir. Qurğunun ümumi ərazisi 18 hektar, tikintialtı sahə isə 70 min kvadratmetrə yaxındır.

Parkda yaradılan şəraitlə tanış olandan sonra dövlətimizin başçısı və xanımı Avropadan olan rəsmi və texniki heyətə xidmət göstərəcək taksilərə baxdılar.

* * *

Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və qızı Arzu Əliyeva veloparkın açılışında iştirak ediblər.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rafael Harpaz ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamışdır. Azərbaycan ilə İsrail arasında əlaqələrin inkişaf etdiyini diqqətə çatdıran Ali Məclisin Sədri qonağın bu səfərinin Naxçıvanın tarixi, mədəni irsi və müasir inkişafı ilə tanışlıq üçün yeni imkanlar açacağını qeyd etmiş, səfirə işlərində uğurlar arzulamışdır.

Səmimi qəbula görə minnətdarlıq edən səfir Rafael Harpaz dünya şöhrətli siyasətçi ümummilli lider Heydər Əliyevin vətəni Naxçıvana növbəti dəfə səfərindən məmnunluğunu ifadə etmişdir. İsrail-Azərbaycan münasibətlərinə toxunan səfir ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin inkişaf etdirildiyini bildirmişdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Səfir Naxçıvanın mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olub, yerli istehsal məhsulları sərgisinə baxıb



***İsrailin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Rafael Harpaz muxtar respublikaya səfəri çərçivəsində Naxçıvanın görməli-görməli yerləri, tarixi abidələri, mədəniyyət və səhiyyə müəssisələri, regionumuzda istehsal olunan məhsulların sərgiləndiyi Naxçıvan Biznes Mərkəzi və Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi ilə tanış olub.***

Səfir əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Biznes Mərkəzi ilə tanışlıq zamanı bildirilib ki, mərkəzdə muxtar respublikada istehsal olunan məhsullar sərgilənir. Hazırda burada 90 müəssisənin 129 növdə və 652 çeşiddə məhsulu nümayiş olunur.

Qeyd edilib ki, 1995-ci illə müqayisədə muxtar respublikada ümumi daxili məhsul istehsalı 54,7 dəfə, sənaye məhsulunun həcmi 97,6 dəfə, əsas kapitala yönəldilən investisiyalar 303,3 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 9,2 dəfə, xarici ticarət dövriyyəsi 27,2 dəfə, əhalinin gəlirləri 56,3 dəfə artıb. Təkcə 2014-cü ildə Naxçıvan Muxtar Respublikasında 47 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb. İndi muxtar respublikada bir çox sahələrdə istehsal olunan məhsullara nəinki Cənubi Qafqaz və MDB, eləcə də dünya bazarında böyük tələbat vardır. Naxçıvanda istehsal sahələrinin çoxşaxəli olması blokada şəraitində yaşayan muxtar respublikanın idxaldan asılılığını minimuma endirir. Bu isə ölkəmizdə aparılan uğurlu iqtisadi siyasətlə bağlıdır.

Həmin gün səfir Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi ilə də tanış olub. Məlumat verilib ki, bu kompleks ötən ilin aprel ayında istifadəyə verilib. Kompleksdə ən müasir avadanlıqlar quraşdırılıb. Təmizləmə prosesində xammal kimi ozon və duzdan istifadə olunması suyun insan sağlamlığı üçün yararlılığına tam zəmanət verir. Sutəmizləyici qurğuda bütün iş prosesinin avtomatik olaraq tənzimlənməsi sistemin etibarlılığını və davamlılığını təmin edir. İqtisadi cəhətdən səmərəli olan yeni nanosüzgəcli qurğu ənənəvi qum süzgəclərindən fərqli olaraq, sudakı bütün zərərli mikrobları tutaraq saxlayır. Bununla da, su təbii mineral tərkibi saxlanılmaqla təmizlənir. Nanosüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlordan istifadə etməklə zərərsizləşdirilməsinə ehtiyac qalmır. Suyun sərfinə, təzyiqinə, elektrik keçiriciliyinə və bulanıqlılığına idarəetmə mərkəzində quraşdırılan kompüterlə nəzarət olunur və iş prosesi avtomatik idarə edilir. Kompleksdə ümumi tutumu 25 min kubmetr olan 3 su anbarı tikilib. Su anbarlarının inşası zamanı hündürlük fərqinin nəzərə alınması şəhərin su təchizatının özüaxımlı rejimdə təmin olunmasına imkan verir.

Ordubad şəhərində Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyət göstərdiyi Qeysəriyyə binası, akademik Yusif Məmmədəliyevin ev-muzeyi, şəhərin qədim tarixi abidələri və küçələri, Naxçıvan şəhəri yaxınlığındakı Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq da İsrailin Azərbaycandakı səfiri Rafael Harpazda xoş təəssüratlar yaradıb.

## Müsabiqənin müsahibə mərhələsi keçirilir

*Dövlət orqanlarında inzibati vəzifələrin VI-VII təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 18 fevral 2015-ci il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsinə start verilib.*

Test imtahanlarında iştirak edən 321 namizəddən 149 nəfəri müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ əldə edib. Komissiyadan verilən məlumata görə, 29 dövlət orqanı üzrə 139 namizəd müsahibə mərhələsində iştirak etmək üçün sənəd təqdim edib.

Dövlət orqanı nümayəndələrinin və müstəqil ekspertlərin iştirak etdiyi müsahibə mərhələsində obyektivliyin tam təmin olunması üçün hərtərəfli şərait yaradılıb. Namizədlərin müsahibə mərhələsinə daha yaxşı hazırlaşmaları üçün hər bir vakant vəzifə üzrə müsahibə proqramları və istifadə olunmuş ədəbiyyat siyahısı hazırlanaraq komissiyanın internet saytında yerləşdirilib.

Şəffaflığın təmin olunması məqsədilə audio və video yazısı qeyd olunan müsahibələrdə namizədlərə biliklərini sərbəst şəkildə nümayiş etdirmək imkanı yaradılıb. 20-30 dəqiqə davam edən müsahibə gedişində hər bir namizədə iddia etdiyi vakant vəzifəyə aid biliklər üzrə, ixtisas və peşə bilikləri üzrə, habelə qanunvericilik və ümumi dünyagörüşü üzrə müxtəlif suallar təqdim olunur. Üç nəfərdən ibarət müsahibə qrupu üzvlərinin ümumi qiymətləndirməsinə əsasən, müvafiq keçid balını toplamış namizəd iddia etdiyi vakant vəzifəyə uyğun hesab edilir və vəzifəyə təyin olunmaq üçün sənədləri dövlət orqanına təqdim olunur.

Məlumat üçün bildirək ki, müsabiqəyə 36 dövlət orqanı üzrə 314 vakant vəzifə çıxarılıb. 350 nəfər namizədin sənəd təqdim etdiyi müsabiqənin test imtahanları 9-17 aprel tarixləri arasında keçirilib.

## Cəmşid Naxçıvanskinin 120 illik yubileyi qeyd olunur

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin birgə təşkilatçılığı ilə nazirliyin Mülki Müdafiə Alayında Cəmşid Naxçıvanskinin 120 illik yubileyi münasibətilə tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədov açıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək Kəngərlilər nəslinin Azərbaycan hərb tarixindəki rolundan danışıb, Kəngərli generalları haqqında məlumat verib.

Məmməd Babayev "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2015-ci il tarixli və "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 aprel 2015-ci il tarixli sərəncamlarının əhəmiyyətindən bəhs edib.



Sonra Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov "Görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin döyüş yolu bugünkü gənclərimizə örnəkdir" mövzusunda geniş məruzə ilə çıxış edib.

Natiq çıxışında Cəmşid Naxçıvanskinin həyatı, keçdiyi döyüş yolu, fəaliyyəti, Azərbaycan hərb tarixindəki yeri barədə ətraflı məlumat verib.

Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədov tədbirə yekun vurub.

Sonda Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətindən bəhs edən filmə baxış olub.

**Xəbərlər şöbəsi**



Blokada və intibah

# Enerji təhlükəsizliyi tam təmin olunan Naxçıvan həm də bu sahədə geniş ixrac imkanlarına malikdir

***Azərbaycanda iqtisadiyyatın bütün sahələri kimi, elektroenergetikanın inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin ölkəmizə rəhbərliyinin birinci dövründən – ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsi, respublikada enerji təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. O vaxta qədər bütün elektrik stansiyalarının ümumi gücü 2200 meqavat təşkil edirdi və elektrik enerjisi təminatının tam ödənilməsində problemlər mövcud idi.***

Ümummilli liderin səyləri və təşkilatçılığı sayəsində hər birinin gücü 300 meqavatlıq 8 blokdan ibarət olan Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının tikintisinə başlanılmış və hər il bir bloku istifadəyə verilən bu stansiya sayəsində Azərbaycanın enerjiyə olan tələbatı tam ödənilmişdir. Həmin dövrdə İran İslam Respublikası ilə birgə tikilən 22 meqavatlıq Araz Su Elektrik Stansiyası, 330 kilovoltluq Mingəçevir-Abşeron hava elektrik verilişi xətləri, yeni transformator yarımstansiyaları istismara verilmişdir. Müstəqillik illərində də ümummilli liderimiz ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunmasını diqqət mərkəzində saxlamış, bu sahənin maddi-texniki təchizatı xeyli gücləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası elektrik enerjisi ilə əvvəllər Zaqafqaziyanın vahid energetika sistemi və sistemə qoşulan Araz Su Elektrik Stansiyası vasitəsilə təchiz edilirdi. Mənfur ermənilərin düşmənçilik siyasəti nəticəsində 1990-cı ildən etibarən muxtar respublikaya elektrik verilişi dayandırılmış, yalnız Araz Su Elektrik Stansiyasında istehsal edilən 15-20 meqavat gücündə elektrik enerjisi şəbəkələrə ötürülürdü.

Ötən əsrin 90-cı illərinin əvvəllərində elektrik enerjisinin verilişində məhdudiyyət tətbiq olunurdu. Naxçıvan şəhərində 2, kəndlərdə isə 4 saat fasilə ilə 2 saat elektrik enerjisi verilirdi. Yanacaq qıtlığı üzündən qazanxanaların fəaliyyəti dayandırılmışdı. Kəskin kontinental iqlim şəraiti olan Naxçıvanın mənfi 40 dərəcəyə düşən soyuğundan qorunmaq üçün insanlar qeyri-standart elektrik qızdırıcılarından istifadə etmək məcburiyyətində qalırdılar. Bu da elektrik xətlərinin, transformatorların sıradan çıxmasına səbəb olur, bəzən də qrafik üzrə verilən elektrik enerjisindən istifadəyə maneçilik törədirdi. İnsanlar evlərində çıraq işığında, soyuq divarlar arasında yaşayır, amma ümidlərini itirmirdilər. Axşamlar yığışıb ümid yeri, təsəlli məkanı olan Ali Məclisin qarşısına gedər, Ali Məclisin ikinci mərtəbəsinin pəncərəsindən süzülüb gələn zəif çıraq işığına baxardılar. Gecədən xeyli keçməsinə baxmayaraq, çıraq işığı sönməz, zülmətə qərq olmuş Naxçıvanı işıqlığa çıxaracaq və işıqlı gələcəyə aparacaq yollar aranardı. O tarixi anları, günləri yaşayan insanların qəlbində xalqı düçar olduğu bəladan qurtaracaq Heydər Əliyev inamı adlı alınmaz bir qala qurulmuşdu. Tarix kitablarından oxuduğum Böyük Vətən müharibəsi illərində Leninqrad (indiki Sankt-Peterburq) şəhərinin 900 günlük mühasirəsini, blokadada saxlanılmasını, insanların hansı məhrumiyyətlərlə üzləşməsini o dövrdə, yəni ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan və naxçıvanlılar öz həyatlarında yaşayır, tarixin sərt sınaqlarına sinə gərir, mübarizə aparırdılar. Leninqrad şəhərinin mühasirəsi cəmi 900 gün çəkdi. Muxtar respublikamızın mühasirəsi isə hələ ötən əsrin 20-ci illərində – sovetlər dönəmində qədim türk yurdu olan Zəngəzur mahalının və Mehri rayonunun ermənilərə "hədiyyə edilməsi" və Naxçıvanın Azərbaycanın əsas ərazisindən ayrı salınması ilə başlanmış, 1990-cı ildə isə bütün dövrlərdə olduğu kimi, məqamı gözləyən erməni xisləti özünü göstərmiş, Naxçıvan Muxtar Respublikası blokadaya salınmışdır.

Həmin dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ümummilli liderimiz Heydər Əliyevin yorulmaz fəaliyyəti və şəxsi nüfuzu sayəsində qonşu dövlətlərdən elektrik enerjisi alınmasını təmin etmək üçün təcili tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə 1991-ci ilin dekabr ayında Türkiyə Respublikasının "Aralıq" yarımstansiyasından Naxçıvan Muxtar Respublikasının "Sədərək" yarımstansiyasına 31,5 kilovoltluq elektrik verilişi xətti çəkilmiş və Sədərək rayonuna 3-4 meqavat gücündə elektrik enerjisi ötürülməsinə başlanılmışdır.





İran İslam Respublikasından elektrik enerjisinin alınması üçün Araz Su Elektrik Stansiyasının ərazisində 132/110/10 kilovoltluq 40 meqavolt-amper güclü "Araz" yarımstansiyası tikilib quraşdırılmış, 132 kilovoltluq Araz-Araz elektrik verilişi xətti çəkilmiş və 1992-ci il dekabr ayının 3-də istismara verilmişdir ki, bu da qonşu dövlətdən 30 meqavat gücündə elektrik enerjisi almağa imkan vermişdir. 1992-ci il dekabr ayının 20-də İran İslam Respublikasının "Culfa" yarımstansiyası ilə Naxçıvan Muxtar Respublikasının "Culfa" yarımstansiyasını əlaqələndirən 10 kilovoltluq elektrik verilişi xətti istismara verilmiş, bu xətlərlə Culfa rayonuna 6-7 meqavat gücündə elektrik enerjisi ötürülməsinə başlanılmışdır. Həmçinin 1992-ci ilin dekabr ayında Türkiyə Respublikasından gətirilərək 220 kilovoltluq "Babək" yarımstansiyası ərazisində quraşdırılmış 4 ədəd – hər birinin gücü 15 meqavat olan və dizel yanacağı ilə işləyən turbin qurğuları istifadəyə verilmişdir. 1993-cü ilin may ayında isə Türkiyə Respublikasının "İqdır" transformator yarımstansiyasından Naxçıvan Muxtar Respublikasına çəkilmiş 87,5 kilometr uzunluqlu 154 kilovoltluq ikidövrəli elektrik verilişi xəttinin çəkilişi başa çatdırılmış və Naxçıvana Türkiyə Respublikasından 50-60 meqavat gücündə elektrik enerjisi ötürülməsinə başlanılmışdır. Beləliklə, 1993-cü ilin ortalarında Naxçıvana İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından 63 meqavat gücündə elektrik enerjisi daxil olmuşdur.

### *Naxçıvanın enerji təhlükəsizliyi tam təmin olunub*

Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyası bu gün uğurla davam etdirilir. Elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədilə ölkə Prezidenti cənab İlham Əliyev 2005-ci il mayın 2-də "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncamın icrası muxtar respublikada da uğurla həyata keçirilmişdir. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının təbii qazla işləmə rejiminə keçməsi təmin olunmuş, 220 kilovoltluq "Babək" yarımstansiyasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Sərəncama əsasən, həmin il ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmiş və sonrakı mərhələlərdə bu istiqamətdə kompleks işlər davam etdirilmişdir. Nəticədə, bu gün muxtar respublikanın enerji təminatı tamamilə daxili istehsal hesabına ödənilir.

Elektrik stansiyalarının tikilib istifadəyə verilməsi enerji təhlükəsizliyinin təmin olunmasında son dərəcə əhəmiyyətli rola malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikanın elektrik enerjisinin daxili imkanlar hesabına ödənilməsinin strateji əhəmiyyət kəsb etdiyini bildirərək demişdir: ***"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".***

Son illər muxtar respublikanın mövcud hidroenerji potensialından səmərəli istifadə olunmaqla ekoloji və iqtisadi cəhətdən daha səmərəli olan su elektrik stansiyaları tikilib istifadəyə verilmişdir. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ilin oktyabrında isə Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası istismara verilmişdir. Ötən il aprel ayının 7-də Şərur rayonu ərazisində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları fəaliyyətə başlamışdır. Muxtar respublikada bu istiqamətdə işlər davam etdirilir. Hazırda Ordubad rayonu ərazisində 36 meqavat gücündə yeni derivasiyatipli su elektrik stansiyasının tikintisi aparılır. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin balansında olan 7 elektrik stansiyasından 6-sı son 20 ildə istismara verilmişdir. Enerji təhlükəsizliyini daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: ***"Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk. Son illərdə Naxçıvanda 5 elektrik stansiyası tikilmişdir. Demək olar ki, Naxçıvanın enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapmışdır".***

### *Alternativ enerji mənbələrindən istifadə edilir*

Əlverişli coğrafi mövqeyi və iqlim şəraiti muxtar respublikada ekoloji cəhətdən təmiz, tükənməyən alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq, Babək rayonunun Xalxal kəndi ərazisində yeni Günəş elektrik stansiyası quraşdırılır. Məqsəd muxtar respublikanın elektrik enerjisinə tələbatının alternativ enerji mənbələri hesabına ödənilməsini təmin etmək və enerji təhlükəsizliyini daha da möhkəmləndirməkdən ibarətdir. Muxtar respublika ərazisində günəşli saatların orta illik kəmiyyətinin 2600-2800 saat təşkil etməsi bu işlərin uğurla yerinə yetirilməsinə imkan verir.

Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının su və digər alternativ elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi hesabına ödənilməsi mümkün olacaq və yaxın gələcəkdə muxtar respublikamız daha çox elektrik enerjisi ixrac edəcək.

1970-ci ildən istismar olunan 22 meqavat güclü Araz Su Elektrik Stansiyası nəzərə alınmaqla istehsal gücü 206 meqavat olan elektrik stansiyalarında hazırda tələbata uyğun olaraq, 80-90 meqavat gücündə elektrik enerjisi istehsal olunur.

Yaz-yay aylarında nasos stansiyalarının işləməsi ilə əlaqədar olaraq, muxtar respublikamızın elektrik enerjisinə tələbatı 75-80 meqavat, qalan aylarda isə 45-50 meqavat olur. Yaz aylarında su elektrik stansiyalarında 60-68 meqavata qədər elektrik enerjisi istehsal edilir.

Göründüyü kimi, muxtar respublikanın elektrik enerjisi ilə təminatına möhkəm zəmin yaradılmışdır. İstehsal olunan elektrik enerjisi nəinki daxili tələbatı ödəyir, hətta 25-30 meqavat elektrik enerjisi ixrac etməyə imkan verir.

### *Fasiləsiz elektrik enerjisi ilə təminat diqqət mərkəzindədir*

Muxtar respublikada istehsal olunan elektrik enerjisinin istehlakçılara fasiləsiz və keyfiyyətli çatdırılması məqsədilə yeni transformator yarımstansiyaları tikilir, mövcud olanlar yenidən qurulur. Son illər "Culfa", "Sədərək", "Çeşməbasar", "Xal-xal", "Koroğlu", "Xalçaçılıq", "Şərur", "Naxçıvan" və "Ordubad" transformator yarımstansiyaları müasir şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Bu ilin fevral ayında isə Kəngərli rayonu ərazisində 35 meqavolt-amper güclü yeni 110 kilovoltluq "Qıvraq" yarımstansiyasında tikinti-quraşdırma işləri başa çatdırılmışdır. Bu tədbirlər Babək rayonunu da əhatə etmiş, 1260 kva güclü 35/10 kilovoltluq yeni "Nehrəm" yarımstansiyasında tikinti-quraşdırma işləri aparılmışdır.

İstehsal olunan elektrik enerjisindən səmərəli istifadə olunması və sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsində mühüm rol oynayan sayğacların quraşdırılması işi də diqqət mərkəzində saxlanılır. Muxtar respublikada vətəndaşların ev və mənzillərinə rəqəmsal elektron sayğaclar qoyulmuş, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilmişdir.

***Bəli, bir vaxtlar evimizin ən vacib əşyası kimi daim gözümüzün qarşısında olan çıraq indi tarixə çevrilmişdir. Həmin çıraq işığında qəbul olunan qərarlar isə Naxçıvanı nura qərq etmişdir. Hər bir ailənin evindən süzülüb gələn işıq seli, yol kənarlarını, park və xiyabanları, müasir memarlıq üslubunda inşa olunan binaları bəzəyən işıqlar – sayrışan ulduzları xatırladan bu ecazkar mənzərə günümüzün reallığı, son 20 ilin bəhrəsidir.***

Kərəm HƏSƏNOV

# Naxçıvan növbəti beynəlxalq şahmat festivalına da uğurla ev sahibliyi etdi

**Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında beynəlxalq şahmat festivallarının keçirilməsi artıq ənənə halını alıb. Bu günlərdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının uğurla başa çatması muxtar respublikada idmanın dünya standartları səviyyəsində inkişafının çox mühüm göstəricisidir.**



Hələ 2003-cü ildə Naxçıvan şəhərində gənclər arasında şahmat üzrə dünya çempionatının keçirilməsi bütün dünyada böyük əks-səda doğurmuşdu. O zaman muxtar respublikada sabitlik, yarışların keçirilməsi üçün ideal şərait yaradılmasaydı, dünyanın 36 ölkəsindən gələn şahmatçılar qəbul edilə, yarışın yüksək səviyyədə keçirilməsi təmin oluna bilməzdi. Məhz həyata keçirilən bu tədbirlər muxtar respublikada uşaq, yeniyetmə və gənclərdə "bəşər tarixinin ən qocaman kəşfi" adlandırılan şahmat idman növünə marağı daha da artırdı. Həmin yarışın uğurlu təşkili sonrakı möhtəşəm idman tədbirlərinin Naxçıvanda keçirilməsinə səbəb oldu, bu istiqamətdə davamlı xarakter alan tədbirlər şahmatın daha da inkişafına böyük təkan verdi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə – ötən əsrin yetmişinci illərində ölkənin hər yerində olduğu kimi, muxtar respublikada da şahmat məktəbləri yaradılmış, buraya ixtisaslı kadrlar cəlb olunmuşdu. Ancaq 1987-ci ildən sonra bu sahə tamamilə unudulmuş, şahmat məktəbləri baxımsız vəziyyətə düşmüşdü. Ulu öndərimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra şahmat məktəbləri üçün yeni binaların tikintisi, mövcud binaların yenidən qurulması və idman federasiyalarının yaradılması işinə başlanılmışdır. Belə mühüm tədbirlərdən biri də 2002-ci ildə Naxçıvan Muxtar Respublikasında Şahmat Federasiyasının yaradılması oldu. Bundan başqa, Naxçıvan şəhərində şahmat məktəbi üçün bina tikilib istifadəyə verildi. Həyata keçirilən quruculuq tədbirləri təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmadı, rayonlarda şahmatın inkişafı məqsədilə müxtəlif tədbirlər reallaşdırıldı. İlk olaraq 2006-cı ilin yanvar ayında Culfa şəhərində şahmat məktəbi üçün yeni bina istifadəyə verildi. Elə həmin ilin may ayında bu sevinci yaşayanlar sırasına şahbuzlular da qoşuldular. Şahbuz şəhərində ümummilli liderimizin adını daşıyan prospektdə şahmat məktəbi üçün bina ucaldıldı. Bunun ardınca Şərur rayonunun şahmatçıları da yeni binanın sevincini yaşadılar. Bir ildə muxtar respublikanın üç rayonunda şahmat məktəbləri üçün yeni binaların istifadəyə verilməsi bu sahəyə nə qədər diqqət yetirildiyinin parlaq ifadəsidir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov şahmatçıların birində demişdir: ***"Uşaqların zehni inkişafında şahmatın xüsusi rolu var. Bu oyun onlara birinci olmağı, qalib gəlməyi təlqin edir. Bu, oğlanlar üçün daha çox vacibdir. Ona görə ki, onlar gələcəkdə torpaqlarımızın müdafiəçiləri olacaqlar. Şahmat gənclərdə özünəinam, liderlik keyfiyyətləri aşılayır. Odur ki, muxtar respublikada bu işə xüsusi diqqət yetirilir".***

Bəli, şahmat möcüzəli bir oyundur. Bu idman növü hələ uşaqlıqdan insanda qalib gəlmək əzmi formalaşdırır, onun zehni inkişafında mühüm rol oynayır. Deyirlər, şahmat formaca oyun, məzmunca incəsənət, bu oyuna yiyələnmə çətinliyinə görə elmdir. Buna görə də şahmatı təkcə idman növü kimi deyil, eyni zamanda insan məntiqini zənginləşdirən elm kimi də qəbul etmək lazımdır. Ümumiyyətlə, şahmatın insana aşıladığı müsbət xüsusiyyətlər çoxdur.

Bütün bunlar nəzərə alınaraq muxtar respublikada şahmatın inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında 2009-cu ildə Naxçıvan şəhərində ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə ən müasir avadanlıqlarla təchiz edilmiş Şahmat Mərkəzinin istifadəyə verilməsini də qeyd etməliyik.

Ölkə rəhbəri 2009-cu il mayın 5-də "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" Sərəncam imzalayıb. Dövlət proqramına uyğun olaraq, şahmatın inkişafı istiqamətində muxtar respublikamızda da silsilə tədbirlər həyata keçirilib. Belə ki, 2011-ci ilin iyul ayında Ordubad rayonunda şahmat məktəbi üçün yeni binanın istifadəyə verilməsi rayon şahmatçılarının böyük sevincinə səbəb olub. 2012-ci ildə "Naxçıvan Open-2012" Beynəlxalq Şahmat Festivalının keçirildiyi ərəfədə Sədərək rayonunda şahmat məktəbi üçün yeni bina istifadəyə verilib. 2013-cü ildə isə bu sevinci Babək rayonunun sakinləri də yaşayıblar. Elə bu günlərdə Kəngərli Rayon Uşaq-gənclər şahmat məktəbinin yeni binasının istifadəyə verilməsi də həyata keçirilən tədbirlərin davamı kimi təqdirəlayiqdir. Hazırda muxtar respublikada 3 mindən artıq məktəbli peşəkar formada şahmatla məşğul olur. Bundan başqa, ümumtəhsil məktəblərində "şahmat" fənninin dərs proqramına daxil edilməsi gənclərin bu idman növünə marağını xeyli artırıb. Artıq Naxçıvan şahmatçıları müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında uğurla çıxış edirlər. Yuxarıda sadalanan tədbirlər həm də muxtar respublikada beynəlxalq yarış və turnirlərin keçirilməsinə şərait yaradıb. Mütəxəssislərin fikrincə, hər hansı bir ölkədə beynəlxalq yarışlar keçirilərkən 3 əsas meyar nəzərə alınır. İlk növbədə, həmin ölkədə idmanın inkişafı, ikincisi, bu sahədə maddi-texniki bazanın vəziyyəti, üçüncüsü isə təşkilatçılıq. Sevindirici haldır ki, bütün bunlar muxtar respublikada yüksək səviyyədədir. 2003-cü ildə Naxçıvanda 20 yaşa qədər gənclər arasında şahmat üzrə dünya çempionatının, bir neçə ildir, beynəlxalq şahmat festivallarının yüksək səviyyədə keçirilməsi bunu sübut etdi.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Şahmat Mərkəzində keçirilən "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalı da öz möhtəşəmliyi ilə yadda qaldı. Beynəlxalq festivalda 12 ölkədən 350-dən çox şahmatçının iştirak etməsi, festival ərəfəsində Beynəlxalq Şahmat Federasiyası prezidentinin muxtar respublikaya gəlməsi festivala və Naxçıvana olan böyük maraqdan xəbər verirdi. Festivalda naxçıvanlı şahmatçılar uğurlu çıxışlar etdilər. Nəzərə alaq ki, yarışlarda beynəlxalq dərəcəli idmançılar iştirak edirdi. Yarışlarda idmançılarımızın çıxışları gələcəkdə daha parlaq uğurların qazanılmasına böyük ümidlər yaradır. Müsahib olduğumuz idman mütəxəssisləri də təsdiq etdilər ki, Naxçıvanı bundan sonra daha böyük uğurlar gözləyir. Artıq Naxçıvanda qrossmeysterlər, FİDE ustaları yetişir. Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov qəzetimizə müsahibəsində dedi: "Bu gün qətiyyətlə deyə bilərik ki, özünün sürətli inkişafı ilə diqqətləri cəlb edən, beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilən Naxçıvan Muxtar Respublikası həm də beynəlxalq idman yarışlarının keçirildiyi məkan kimi şöhrət qazanıb. Muxtar respublikada həm şahmat infrastrukturunun müasirləşdirilməsi, həm də şahmatçıların fəaliyyətlərinin dəstəklənməsi peşəkar şahmatçılar nəslinin yetişməsinə səbəb olub. Artıq naxçıvanlı şahmatçılar ölkəmizdə və dünyada keçirilən şahmat birinciliklərində uğurla çıxış edirlər".

Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalını yüksək dəyərləndirərək bildirdi ki, hər il keçirilən bu turnirə dünya şahmatçıları böyük maraq göstərirlər. İstər təşkilatçılıq, istərsə də iştirakçı şahmatçıların səviyyəsi festivalın əhəmiyyətini ilbəil artırır. Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafına göstərilən qayğı, yaradılan infrastruktur məmnunluq doğurur.

*Bəli, Naxçıvan Muxtar Respublikası "Naxçıvan-2015" Beynəlxalq Şahmat Festivalının yüksək səviyyədə təşkili ilə nəyə qadir olduğunu bir daha sübut etdi. Bu isə onu göstərir ki, təcavüzkar Ermənistan Naxçıvanı blokadaya salsa da, bu gün bu blokadanın çətinliklərini region sakinləri hiss etmirlər. Naxçıvan inkişaf edir, gözəlləşir, dünyada tanınır. Hələ bundan sonra da qədim diyarımızı neçə-neçə belə beynəlxalq yarışlar gözləyir...*

**✍ Sara ƏZİMOVA**

# Müharibə iştirakçısının 90 yaşı qeyd olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı" na uyğun olaraq, 1941-1945-ci illər müharibəsinin 90 yaşına çatmış veteranlarının yubileylərinin keçirilməsi davam etdirilir.

Bu istiqamətdə növbəti görüş mayın 13-də Naxçıvan şəhər sakini Dilbər Təhməzbəyova ilə olub. Görüşdə iştirak edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı 90 yaşı münasibətilə təbrik ediblər.

Bildirilib ki, 1941-1945-ci illər müharibəsində muxtar respublikamızdan da minlərlə oğul və qızlarımız cəbhəyə yollanıb və işğal olunmuş ərazilərin azad olunmasında, tarixi qələbənin qazanılmasında yaxından iştirak ediblər. Onların qəhrəmanlığı dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib. Muxtar respublikada 1941-1945-ci illər müharibəsi iştirakçılarının sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə davamlı tədbirlər həyata keçirilir. Mayın 9-da – faşizm üzərində qələbənin 70-ci ildönümündə Naxçıvan şəhərində 1941-1945-ci illər müharibəsi veteranlarına da "NAZ-Lifan-320" markalı minik avtomobilinin təqdim edilməsi bu qayğının daha bir bariz nümunəsidir.

Qeyd olunub ki, müharibə iştirakçılarına müxtəlif növ xidmətlər göstərilir. Belə ki, müharibə əlili və müharibə iştirakçılarına hər ay Prezident təqaüdü ödənilir, onlar respublikanın sanatoriya və pansionatlarında müalicə olunmaları üçün göndərişlərlə, ehtiyacı olanlar texniki bərpa vasitələri və protez ortopediya məmulatları ilə təmin olunurlar. Bütün bunlar müharibə veteranlarının sağlamlıqlarının qorunmasına, həyat səviyyələrinin yüksəlməsinə xidmət edir.

Dilbər Təhməzbəyova yüksək qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyi münasibətilə konsert

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 29 mart 2015-ci il tarixli "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq, Naxçıvan Musiqi kollektivlərinin muxtar respublikanın şəhər və rayonlarında konsertlərinin keçirilməsi nəzərdə tutulub. İlk konsert Şərur Rayon Mədəniyyət Sarayında təşkil olunub.***





Konsert başlamazdan əvvəl Naxçıvan Musiqi Kollecinin direktoru Həsən Seyidov çıxış edərək "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamın Naxçıvan musiqiçilərinin böyük sevincinə səbəb olmaqla onların gələcək fəaliyyətinə böyük qayğının ifadəsi olduğunu qeyd edib. Bildirilib ki, Naxçıvan Musiqi Kolleci 1975-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. 1975-ci ildən Naxçıvan Orta İxtisas Musiqi Məktəbi, 1992-ci ildən Naxçıvan Musiqi Texnikumu, 2005-ci ildən isə Naxçıvan Musiqi Kolleci kimi fəaliyyət göstərən bu təhsil ocağı böyük inkişaf yolu keçib. Musiqi sahəsi üzrə kadrların hazırlanması məqsədilə yaradılan bu təhsil müəssisəsi 4 ixtisas üzrə fəaliyyətə başlayıb. Hazırda kollecdə 11 ixtisas üzrə 552 tələbə təhsil alır. Bu tələbələrin təlim-tərbiyəsi ilə 181 müəllim və konsertmeyster məşğul olur. 1975-ci ildən ötən dövr ərzində Naxçıvan Musiqi Kollecinin 2500-dən çox məzunu olub. Vurğulanıb ki, kollecin məzunlarından 360-a yaxını Şərur rayonundandır və onlar burada fəaliyyət göstərən uşaq musiqi məktəblərinin müəllimləridir. Hazırda kollecdə Şərur rayonundan 58 tələbə təhsil alır.

Sonra konsert olub. İlk olaraq simfonik orkestr Ü.Hacıbəylinin "Uvertüra"sını ifa edib. Qədim alətlər ansamblını müşayiəti ilə Əbülfəz Məmmədov və Səid Həsənov "Şur" kompozisiyasını təqdim ediblər. "Dilruba" muğam ansamblının, estrada orkestrinin və "Naxçıvanqala" ritm qrupunun müşayiəti ilə Əbülfəz Məmmədovun, Samir İsmayılovun, akkordeonda Sahil Qasımovun, balabanda Mübariz Əliyevin və vokal qrupunun ifaları tamaşaçılarda xoş ovqat yaradıb. Qeyd edək ki, musiqi kollektivlərinə Səməd Əsgərov, Cəlil İsmayılov və Mustafa Məmmədov bədii rəhbərlik ediblər.

Konsert proqramının sonunda solistlərdən Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Elçin Nağıyev və İlkin Abdullayevin ifaları alqışlarla qarşılanıb.

**Xəbərlər şöbəsi**

## Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul imtahanları başlayıb



***Mayın 13-də Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul imtahanları keçirilib. Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin VI və VII sinif şagirdləri üçün nəzərdə tutulmuş imtahanlar Naxçıvan şəhərində və rayon Təhsil şöbələrinin nəzdində yaradılmış imtahan mərkəzlərində keçirilib.***

İmtahanlar saat $15^{00}$-də başlayıb və şagirdlərə müvafiq fənlər üzrə 100 test sualı təqdim olunub. Şagirdlərə imtahan müddəti üçün 2 saat 30 dəqiqə vaxt ayrılıb. İmtahanların obyektiv keçirilməsinə nəzarət Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin nəzarətçi bazasında olan müəllimlər və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin məsul əməkdaşları tərəfindən aparılıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 aprel 2015-ci il tarixli Sərəncamı ilə yaradılmış Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə sənədlərin qəbulu aprel ayının 15-dən may ayının 10-dək aparılıb və ümumilikdə, 1060 şagird sənəd verib. 2015-2016-cı tədris ili üçün liseyə 160 şagirdin qəbulu nəzərdə tutulub. Dünən VI və VII siniflər üzrə keçirilən imtahanlarda 461 şagird iştirak edib. Mayın 15-də isə liseyə VIII və IX siniflər üzrə qəbul imtahanları keçiriləcək və 419 şagird iştirak edəcək.

**Xəbərlər şöbəsi**

***Azərbaycan Respublikası gömrük orqanları arasında təşkil olunan futzal turnirinə yekun vurulub.***

## Naxçıvan gömrükçülərinin futzal komandası turnirin qalibi olub

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş yarışın qalibi Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin komandası olub. Artıq ənənə halını almış turnirdə dəfələrlə çempionluq sevinci yaşayan "Naxçıvan" komandası növbəti uğurunu Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin komandası üzərində əldə edib.

Bakı şəhərindəki ABU ARENA-da keçirilən final oyunu gözlənildiyindən də gərgin olub. Matçın 3-cü dəqiqəsində əks-hücumda yaxalanan komandamız hesabda geri düşüb. Sonrakı dəqiqələrdə tərəflər əlverişli qol imkanları əldə etsələr də, ilk hissə elə bu hesabla da başa çatıb.

İkinci hissənin əvvəllərində bərabərlik qolu üçün təzyiqi artıran komandamız rəqibin növbəti sürətli hücumu nəticəsində çətin duruma düşüb. Hesab arasındakı fərq iki topa çatıb. İkinci hissənin ortalarında Polad Həsənlinin ötürməsindən sonra topu boş qapıdan keçirən Kamil Hacıyev futzalçılarımızı ruhlandırıb. Rəqibin əks-hücumları təhlükəli olsa da, komandamız sona 4 dəqiqə qalmış "status-kvo"nu bərpa edib. Ramazan Ağayevin qolu oyunu uzatmalara aparıb. Hər biri 5 dəqiqəlik ikihissəli uzatmalarda futzalçılarımız rəqib üçün çıxış yeri qoymayıblar. Kamil Hacıyev kimi, Orxan Məmmədov da dubla imza atıb. Beləliklə, final qarşılaşması "Naxçıvan" komandasının 5:2 hesablı qələbəsi ilə başa çatıb.

Final oyunundan əvvəl keçirilmiş üçüncülük uğrunda qarşılaşmada isə Bakı Baş Gömrük İdarəsinin komandası Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin futzalçılarını məğlubiyyətə uğradıb.

Sonra qaliblərin və şəxsi göstəricilərə görə turnirdə fərqlənənlərin mükafatlandırılması mərasimi olub. Komandamızın qapıçısı Rahil Tahirli turnirin ən yaxşı qapıçısı, Kamil Hacıyev isə ən yaxşı müdafiəçisi seçilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Tenderə dəvət

***Tarix: 13 may 2015-ci il***

***Kredit nömrəsi və adı: 3079-AZE "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı-Layihə 3".***

***Müqavilənin nömrəsi və adı: MFF-043-T3-ICB-1.01: Naxçıvan şəhərində şəhərətrafı ərazilərdə supaylayıcı və kanalizasiya şəbəkəsinin tikintisi.***

***Təkliflərin son təqdimetmə tarixi: 25 iyun 2015-ci il, saat $10^{00}$ (Bakı vaxtı ilə).***

1. Azərbaycan Respublikası Hökuməti "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı-Layihə 3"-ün icrası üçün xərclərin ödənilməsi məqsədilə Asiya İnkişaf Bankından (AİB) kredit almışdır. Bu kreditin bir hissəsi yuxarıda adıçəkilən müqavilə üzrə ödənişlər üçün istifadə olunacaqdır. Tenderdə AİB üçün məqbul ölkələr iştirak edə bilərlər.

2. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi (DMSTK) (sifarişçi) Naxçıvan şəhərində şəhərətrafı ərazilərdə supaylayıcı və kanalizasiya şəbəkəsinin tikintisi və tamamlanması üçün aşağıdakı işlər daxil olmaqla, lakin bununla məhdudlaşmamaq şərtilə münasib ölkələrdən olan iddiaçıları tenderə dəvət edir:

A. Su təchizatı sistemi

• müvafiq siyirtmələr, yanğın hidrantları, fitinqlər və sair ilə birlikdə 64822 metr uzunluqda supaylayıcı şəbəkənin tikintisi

• su sayğaclarının təmin edilməsi və quraşdırılması da daxil olmaqla ev birləşmələri – 2166 ədəd

B. Kanalizasiya sistemi

• çirkab su (kanalizasiya) şəbəkəsinin tikintisi – 51678 metr

• çirkab su (kanalizasiya) quyularının quraşdırılması – 1086 ədəd

• birləşmələr – 2166 ədəd

• 30 l/san sərfiyyata malik bir ədəd nasos stansiyası.

Nəzərdə tutulan icra müddəti 548 gündür.

3. Beynəlxalq rəqabətli tender AİB-in birmərhələli bir zərfli tender proseduru çərçivəsində həyata keçiriləcək və tender sənədlərində göstərildiyi kimi, məqbul ölkələr tenderdə iştirak edə biləcəklər.

4. Bu tenderdə yalnız aşağıdakı əsas keyfiyyətlərə malik məqbul ölkələr iştirak edə bilərlər:

• son beş (5) ildə oxşar işləri əhatə edən, dəyəri ən az iyirmi milyon ABŞ dolları ($20 000 000) miqdarında olan ən az bir (1) müqavilənin uğurla yerinə yetirilməsi və tamamlanmasında təcrübəsi olan;

• minimum illik tikinti dövriyyəsi son üç (3) il ərzində tamamlanmış və ya davam etməkdə olan müqavilələr üzrə təsdiq edilmiş və alınmış ən az qırx üç milyon dörd yüz əlli min ABŞ dolları ($43 450 000) təşkil edən;

• beş milyon dörd yüz əlli min ABŞ dolları ($5 450 000) dəyərində, başqa müqavilələrin icrası üçün nəzərdə tutulmamış likvid aktivlərə, girov qoyulmamış real aktivlərə, kredit almaq imkanlarına və digər bu kimi maliyyə resurslarına və ya bu resurslardan istifadə etmək hüquqlarına malik olan;

• tender iddiaçısına qarşı qaldırılmış məhkəmə iddialarının ümumi məbləği şirkətin tam maliyyə vəsaitinin 50 faizindən çox olmamalıdır.

5. Yuxarıda qeyd edilən işlərin hamısı çertyoj və spesifikasiyada göstərilənlərə uyğun olaraq həyata keçirilməlidir. İddiaçı ətraflı məlumat əldə etmək üçün bu tender sənədlərinin "işverənin tələbləri" hissəsinin 6-cı bölməsinə baxmalıdır.

6. Əlavə məlumat əldə etmək və tender sənədlərini nəzərdən keçirmək üçün iddiaçılar aşağıda göstərilən ünvanla əlaqə saxlaya bilərlər.

***Əlaqələndirici şəxs: İbrahim Məmmədov***
***Layihə idarəetmə qrupunun direktoru***
***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi***
***Naxçıvan şəhəri, Xətai məhəlləsi,***
***Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası***
***Telefon: (+99436) 545-26-18***
***Faks: (+99436) 545-30-67***
***Elektron ünvan: dmstk@nakhchivan.az***

7. Tender sənədlərini ingilis dilində əldə etmək üçün münasib iddiaçılar:

• Naxçıvan şəhərində şəhərətrafı ərazilərdə supaylayıcı və kanalizasiya şəbəkəsinin tikintisinin tender sənədlərini əldə etmək üçün yazılı olaraq yuxarıdakı ünvana müraciət edə bilərlər.

• 250 manat və ya 250 ABŞ dolları məbləğində geri qaytarılmayan vəsaiti birbaşa aşağıdakı hesab nömrəsinə köçürməlidirlər.

• geri ödənilməyən məbləğ DMSTK-nın bank hesabına keçdikdən sonra iddiaçıların rəsmi nümayəndələri tender sənədlərini DMSTK ofisindən əldə edə bilərlər.

• alternativ olaraq DMSTK maraqlanan tender iştirakçılarına onlardan yazılı təklif aldıqdan və tələb olunan vəsait bank hesabına keçdikdən sonra kuryer poçt vasitəsilə tender sənədlərini göndərə bilər. Tender sənədləri əlavə 100 manat və ya 100 ABŞ dolları miqdarında vəsait ödənildikdən sonra kuryer poçt vasitəsilə göndərilə bilər. Geri qaytarılmayan vəsait və kuryer xərci də alındıqdan sonra sənədlər dərhal poçtla göndəriləcək. İtki və ya gec çatdırılma halları üçün heç bir öhdəlik daşınmır.

***Benefisiarın adı: Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi (DMSTK)***
***VÖEN: 0200022991***
***Benefisiarın bankı: Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi***
***Kod: 502906***
***VÖEN: 0200087741***
***Müxbir hesab No: AZ88NABZ01451700000000012944***
***SWIFT Kod: NABZAZ2C***
***Manat ilə hesab No: AZ95NABZ12360150000000026944***
***ABŞ dolları ilə hesab No: AZ91NABZ12360250000000001840***

8. Zəhmət olmasa, ingilis dilində olan tender təkliflərinizi yuxarıdakı ünvana çatdırın;

• son tarix olan 25 iyun 2015-ci il, Bakı vaxtı ilə saat $10^{00}$-da və yaxud bu tarixdən əvvəl

• tender sənədində göstərildiyi kimi tender zəmanəti ilə birlikdə çatdırın.

9. Tender təklifləri təyin olunmuş son tarix tamamlandıqdan dərhal sonra iddiaçıların iştirak etmək istəyən nümayəndələri ilə birlikdə açılacaq.

## Invitation for bids

***Date: 13 may 2015***

***Loan No. and Title: 3079-AZE: Water Supply and Sanitation Investment Program – Project 3***

***Contract No. and Title: MFF-043-T3-ICB-1.01: Constructionof Water Distribution and Sewerage Networks of Periurban towns of Nakhchivan City***

***Deadline for Submission of Bids: 25 June 2015, $10^{00}$ Baku Time***

1. The Republic of Azerbaijan has applied for a loan from the Asian Development Bank (ADB) towards the cost of the Water Supply and Sanitation Investment Program – Project 3. Part of this loan will be used for payments under the Contract named above. Bidding is open to bidders from eligible source countries of the ADB.

2. The State Amelioration and Water Management Committee (SAWMC) of the Nakhchivan AR("the Employer")invites sealed bids from eligible bidders for the Construction and Completionof Water Distribution and Sewerage Networks of Periurban towns of Nakhchivan City, consisting of, but not limited to, the following:

A. Water Supply System

• Construction of water distribution network – 64,822 m, together with associated valves, fire hydrants, fittings, etc.

• Connection of houses including supply and installation of water meters – 2,166 sets.

B. Sewerage System

• Construction of wastewater (sewerage) network – 51,678 m

• Construction of wastewater (sewerage) manholes – 1,086 sets

• Connections –2,166 sets.

• One lift station with a capacity of 30 lt/sec pumping capacity

The estimated implementation period is 548 days.

3. International Competitive Bidding will be conducted in accordance with ADB's single-stage-one-envelope bidding procedure and is open to all Bidders from eligible countries as described in the Bidding Documents.

4. Only eligible bidders with the following key qualifications should participate in this bidding:

• Experience in construction and successful completion of minimum one (1) contract with similar works, with a value of at least equivalent to Twenty Million US Dollars ($20,000,000) within last five (5) years;

• Minimum average annual construction turnover shall be at least equivalent to Forty Three Million Four Hundred Fifty Thousand US Dollars ($43,450,000) calculated as total certified payments received for contracts in progress or completed, within the last three (3) years;

• Access to or availability of financial resources such as liquid assets, unencumbered real assets, line of credit and other financial means, other than any contractual advance payments for the amount of Five MillionFourHundred Fifty Thousand US Dollars (US$ 5,450,000) to meet the bidder's financial resource requirement;

• All pending litigation shall be treated as resolved against the Bidder and so shall in total not represent more than 50 percent of the Bidder's net worth.

5. All the works described above must be implemented as shown in the drawings and specifications. For further information the bidders should refer to the details indicated in Section 6, Employer's Requirement of the bidding document.

6. To obtain further information and inspect the bidding documents, bidders should contact:

***Mr. Ibrahim Mammadov, Director of Project Management Unit (PMU)***
***State Amelioration and Water Management Committee, Nakhchivan AR***
***Khatai district, Nakhchivan***
***The Republic of Azerbaijan, Nakhchivan Autonomous Republic***
***Telephone: (+99436) 545-26-18***
***Facsimile number: (+99436) 545-30-67***
***Electronic mail address: dmstk@nakhchivan.az***

7. To purchase the bidding documents in English, eligible bidders should:

• write to the address above requesting the bidding documents for Constructionof Water Distribution and Sewerage Networks in Periurban towns of Nakhchivan City

• pay a non-refundable fee of Manat 250 or US$ 250 by direct deposit to the Account No. mentioned below.

• Upon receipt of appropriate non-refundable fee to the Bank account of SAWMC, official representatives of the bidders may pick-up the bidding documents at the SAWMC office.

• Alternatively, SAWMC may dispatch by courier the bidding documents to the interested bidders after receiving their written request and after receiving the required amount in the Bank account.The bidding document may be sent via courier post for an additional fee of Manat 100 or US$100. Upon receipt of the cleared payment of the non refundable fee, including courier fee, the documents will promptly be dispatched by courier. No liability will be accepted by SAWMC for loss or late delivery.

***Beneficiary's Name: State Amelioration and Water Management Committee (SAWMC), Nakhchivan AR***
***TAX ID: 0200022991***
***Beneficiary's Bank: Nakhchivan Office of the Central Bank of Azerbaijan Republic***
***Code: 502906***
***TAX ID: 0200087741***
***Correspondent Acc No: AZ88NABZ01451700000000012944***
***SWIFT Code: NABZAZ2C***
***Manat account No: AZ95NABZ12360150000000026944***
***USD account No: AZ91NABZ12360250000000001840***

8. Please deliver your bid in English language to the address above:

• on or before the deadline 25 June 2015 at $10^{00\ AM}$ (Baku Time)

• together with a Bid Security as specified in the bidding document

9. Bids will be opened immediately after the deadline in the presence of bidders' representatives who choose to attend.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 383